# Müəllimlik peşəsi şərəfli peşədir

Hər il oktyabrın 5-də bütün dünyada müəllimlər öz peşə bayramlarını təntənə ilə qeyd edirlər. Həmin gün hər bir müəllim birinci sinifdə oxuduğu illəri xoş xatirə kimi yada salır, ona ilk dəfə qələm tutmağı, yazı yazmağı və kitab oxumağı öyrədən müəllimi xatırlayır.

Bəli, müəllimlik dünyada ən çətin, eyni zamanda ən şərəfli peşədir. Ölkəmizdə ulularımız həmişə bu gözəl peşə sahiblərinə hörmətlə yanaşmışlar. Ümummilli liderimiz Heydər Əliyev hətta sağlığında müəllimlərin əməyinə yüksək qiymət verərək demişdir: «Hər birimizdə müəllimin hərarətli qəlbinin bir zərrəciyi vardır. Məhz müəllim doğma yurdumuzu sevməyi, hamımızın rifahı naminə vicdanla işləməyi müdrikliklə və səbirlə bizə öyrətmiş və öyrədir». Heydər Əliyev həmişə müəllimlərin əməyini yüksək qiymətləndirmişdir. O, öz müəllimlərini minnətdarlıqla xatırlayar, onların xidmətlərindən ürək dolusu danışardı. Ulu öndər Azərbaycana rəhbərlik etdiyi dövrlərdə həmişə müəllimə hörmətlə yanaşmış, onların maddi vəziyyətinin yaxşılaşması qayğısına qalmışdır. Çünki müəllim əməyinin nəticəsində cəmiyyət formalaşır, savadlı, bilikli, geniş dünyagörüşlü, nümunəvi əxlaqa malik insanlar yetişdirir. Hazırda dövlətimizin müstəqilliyinin möhkəmlənməsində fəal iştirak edən insanlar məhz müəllim əməyinin yetirmələridirlər. Rayonumuzun təhsil sistemində çalışan müəllimlərimiz də Azərbaycan dövlətinin və dövlətçiliyimizin qorunub saxlanılmasında, möhkəmlənməsində fəal iştirak edirlər. Belə müəllimlərimizin bir neçəsinin əməyini Prezidentimiz cənab İlham Əliyev imzaladığı sərəncamlarla yüksək qiymətləndirmişdir. Belə müəllimlərə Əmirvan kənd tam orta məktəbinin müəllimi Ağamirzə Aydınov «Şərəf nişanı» ordeni, Nic qəsəbə 1 saylı tam orta məktəbin tarix müəllimi Anjella Çintalova «Xalqlar dostluğu», Məlikli kənd tam orta məktəbin direktoru Dursun Göyüşov, şəhər 1 saylı tam orta məktəbin müəllimi Suqra Kərimova, 5 saylı tam orta məktəbin müəllimi Nərminə Səfərova, 2 saylı tam orta məktəbin müəllimi Rəna Kərimova «Tərəqqi» medalı, müxtəlif təhsil ocaqlarında çalışan 5 nəfərdən artıq müəllim «Əməkdar müəllim» fəxri adları ilə təltif olunmuşlar. Eyni zamanda son illər Qəbələ 1 saylı, 4 saylı, Nohurqışlaq kənd, Vəndam qəsəbə 1 saylı tam orta məktəbləri isə «İlin ən yaxşı məktəbi» müsabiqəsinin qalibi olmuş, həmin məktəblər ayrı-ayrılıqda pul mükafatı ilə mükafatlandırılmışdır.

Prezidentimiz təhsilin inkişafına, təhsil ocaqlarının maddi-texniki bazasının möhkəmləndirilməsinə, yeni təhsil müəssisələrinin tikintisinə xüsusi önəm verir və qayğı göstərir. Son illərdə rayonumuzda 24 yeni məktəb tikilmiş, 4 məktəb isə əsaslı təmir olunmuşdur. Həmin məktəblərdə 5 mindən artıq şagird hər cür avadanlıqlarla təchiz olunmuş sinif otaqlarında rahat təhsil alır.

Biz də müəllimlərimizi peşə bayramları münasibətilə ürəkdən təhbrik edir və yeni dərs ilində gənc nəslə elmlərin əsaslarını öyrətmək yollarında uğurlar və can sağlığı arzulayırıq.

**Aslan CƏLİLOV.**

# Amalım zamanın tələbləridir



Son illər həyatımızın bütün sahələrində olduğu kimi təhsil sahəsində də islahatlar, innovasiyalar dövrüdür. 2006-cı ildə «Azərbaycan Respublikası ümumi təhsilin konsepsiyası», 2009-cu ildə «Təhsil haqqında qanun», 2010-cu ildə «Ümumi təhsil pilləsinin dövlət standartları və proqramları» kimi bir sıra normativ sənəd və qanunların qəbulu təhsilin inkişafına səbəb oldu.

Ümummilli liderimiz Heydər Əliyev deyirdi: «Təhsildə inqilab etmək olmaz, hər şey təkamül xarakteri daşımalıdır». Bu prinsipi əldə rəhbər tutaraq aparılan şəxsiyyətyönümlü, inkişafyönümlü islahatlar təhsil alanın dövlətə, millətə, cəmiyyətə yararlı bir şəxsiyyət, vətəndaş kimi formalaşmasını hədəfləyirdi. Əlbəttə, dəyişikliklə reformalar birtərəfli aparıla bilməzdi. Təhsil alanın keyfiyyət göstəricisinin yüksəlməsi, qəbul edilən normativ sənədlərin kağız üzərində qalmaması üçün təhsil verənlərin keyfiyyət göstəricisinin yüksəlməsi, təkmilləşməsi yeniləşən dünyaya, inkişaf edən Azərbaycan reallığına adaptasiya olunması zərurəti yarandı. Bu məqsədlə müəllimlər bir sıra təkmilləşmə kurslarına, təlimlərə cəlb edildi, kurikulum islahatları, yeni fənn kurikumlarının mahiyyəti, İKT-dən istifadə bacarıqları mərhələli şəkildə öyrənildi. Amma reallıq budur ki, əgər biz müəllimlər öz üzərimizdə çalışmasaq, araşdırmalar aparmasaq, hər şeyin hazır şəkildə bizə aşılanmasını gözləsək onda heç bir inkişafdan söhbət gedə bilməz.

Müəllim—öyrədən daim axtarışda olmalı, yeniliklərlə tanış olmalı, dövrün, zamanın dəyişən tələblərinə uyğunlaşmalıdır. Fəal təlimdə belə bir anlayış var: «Öyrənirəm ki, öyrədim və öyrədirəm ki, daha yaxşı öyrənim». Bu iki fakt arasındakı əks əlaqəni tutaraq mən də öz üzərimdə çalışdım. İlk öncə öyrənməyə başladım. Belə ki, İKT-nin təlimə tətbiqi, «Ümumi orta təhsil səviyyəsi üzrə fənn kurikulumlarının tətbiqi», «Dayaq məntəqələrinin yaradılması» ilə bağlı bir sıra təlim kurslarında iştirak etdim. Əldə etdiyim biliklərin nəticəsi olaraq 2009-cu ildə «İngilis dilinin praktik qrammatikası» adlı kitabım nəşr olundu. Bu isə əlavə 10 faiz bilik demək idi. Bununla kifayətlənməyərək, dünyanın qabaqcıl ölkələrinin—Amerika, Kanada, Böyük Britaniya təhsil modelini müxtəlif resurslardan: kitablardan, audio-vizaual materiallardan araşdıraraq öz əlavə biliyimi 20 faizə çatdırdım. Bildiyimiz kimi fəal təlimin ana xətti biliyin bacarığa-kompetensiyalara çevrilməsidir. Bu məqsədlə üzvü olduğum AZETA təşkilatının 10-cu konfransfında təqdimatla çıxış etdim. Bu günlərdə ingilis dilinin tədrisi ilə bağlı Türkiyədə keçiriləcək 4-cü beynəlxalq konfransında təqdimatçı kimi iştirak edəcəyəm.

Ötən tədris ilində 5-ci sinif şagirdlərindən təşkil etdiyim teatr qruppamla müxtəlif nağılları fəal təlim metodlarına uyğun olaraq müasirləşdirərək Qəbələ rayonunun müxtəlif məktəblərində ingilis dilində uğurlu tamaşalar verilməsinə nail olmuşam.

Vaxtaşırı açıq dərslər də təşkil edərək, dövri mətbuatda çıxışlar edib öz təcrübəmi həmkarlarımla paylaşıram. 2012—2013-cü tədris ilində silsilə şəkildə təşkil etdiyim açıq dərslərdə Qəbələ Rayon Təhsil Şöbəsinin, Müəllimlər İnstitutunun əməkdaşları iştirak etmiş, öz rəy və təkliflərini bildirmişlər. «Təhsil», «Azərbaycan müəllimi», «Təhsil problemləri», «Respublika», «Azərbaycan məktəbi» adlı qəzet və jurnallarda fəal təlim, kurikulum islahatları ilə bağlı müxtəlif səpkili məqalələrim dərc edilmişdir. Bu uğurlu addımdan ruhlanaraq Təhsil Nazirliyinin dinləmələrində iştirak edib təlimçi statusu aldım və hal-hazırda müxtəlif regionlarda təlimçi kimi fəaliyyət göstərirəm.

Pedaqoji fəaliyyətimlə yanaşı elmi fəaliyyətlə də məşğulam. Təhsili daha ali mərhələlərdə davam etdirmək üçün bu il magistratura pilləsinə sənəd vermişəm və qəbul olunmuşam. Hədəfim doktorantura səviyyəsində təhsilimi davam etdirərək təhsilimizin inkişafına xidmət etməkdir. Müqəddəs müəllim adını yüksəltmək üçün bundan sonra da var qüvvəmlə çalışacağam.

Bütün əldə etdiyim nailiyyətlərim 5 oktyabr—Beynəlxalq Müəllimlər Gününə hədiyyəmdir. Bayram günü arxada qalsa da müəllimlərimizi bu şərəfli bayram münasibətilə təbrik edirəm və onlara yeni dərs ilində uğurlar arzulayıram.

**Mədinə QASIMOVA,**
**Vəndam qəsəbə 1 saylı tam orta məktəbin xarici dil müəllimi.**

# Müəllim

Dünya sənin elminlə
Daim olur bərqərar.
Peşəni əvəz edən,
Dünyada peşəmi var?
Sən olmasan bu dünya
İnan, zülmətdə qalar.
Sənsən ziyalı edən
Oğlanı-qızı, müəllim!
Sənsən nura qərq edən
Bu dünyamızı, müəllim!
Örnəyin - Dədə Qorqud,
Babək, Sara xatındı.
Şagirdinin zəfəri
Uçmağa qanadındı.
Xalqının xoştbəxtliyi
Böyük mükafatındı.
Səncən qəhrəman edən
Oğlanı-qızı, müəllim!
Sənsən nura qərq edən,
Bu dünyamızı, müəllim!
İnsan Aya, ulduza
Sənin sayəndə çatdı.
Sinəyə ürək qoyub
Ömürə ömür qatdı.
Sənin sayəndə bu gün
Yer də, göy də abatdı.
Sənsən bilikli edən
Oğlanı-qızı, müəllim!
Sənsən nura qərq edən,
Bu dünyamızı, müəllim!
Sevir, sevəcək səni
Hamı ata, ana tək.
Heç kəs unutmaz səni
Yüz yaşasa sonadək.
Hamı hörmət eyləyir
Ən çox bil ki, sənə tək.
Sənsən hörmətli edən
Oğlanı-qızı, müəllim!
Sənsən nura qərq edən
Bu dünyamızı, müəllim!

**Əhməd MƏMMƏDLİ,**
**Nic qəsəbəsi.**




Respublika Milli Onkologiya Mərkəzinin 16 nəfərdən ibarət Həkim briqadası bu günlərdə Qəbələ Mərkəzi Xəstəxanasında olmuşdur. Ankoloji xəstəliklər üzrə mütəxəssislər onlara müraciət edən hər kəsi təmənnasız müayinə etmiş, ehtiyac olduqda müalicə üçün qeydiyyata götürmüş və öz faydalı məsləhətlərini vermişlər.

**Foto S. UMUYEVİNDİR.**